Azərbaycan.- 2021.- 16 mart. S. 10.

# Səməni



**Səməni Novruz bayramının əsas atributlarından biridir. Adətən, bayram ərəfəsində bütün evlərdə göyərdilən bərəkət nişanəsidir. Yazın gəlməsi, torpağın oyanması, təbiətin canlanması yaşıllıq rəmzi sayılan səməni Novruz süfrəsində ən görkəmli yeri tutur. Qohum-qonşular bir-birlərinə səməni yollayır, onun şərəfinə alqışlar söylənilir, qədim mahnılar oxunur.**

Əkinin, məhsul bolluğunun rəmzi olan səməni qoymaq çox-çox qədimlərdən adət olub. Ona görə ki, səməni taxıldır, çörəkdir, xeyir-bərəkətdir. Bərəkət isə həyatın, dolanışığın rəhnidir. İnsanların yaşaması üçün vacib olan maddi bolluğun ən mühüm şərtidir.

Yunan filosofu, yazıçı və tarixçi Plutarx göstərmişdir ki, qədim Azərbaycanda (Midiyada) taxılı müqəddəs bitki saymaq adəti geniş yayılmışdır. Bu adət hər dəfə ilin başlanğıcında (yazda) icra edilərdi. Çox yaxşı haldır ki, bu adət bizim günlərə qədər gəlib çıxmışdır. Səməninin varlığı, həyatverici gücü, mənası torpağa tapınmaqdır. Səməni göyərtməklə ümidini, arzusunu, ruzusunu göyərtmiş olur əkinçi babalarımız.

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Başım, dişim ağrımasın
Ağrılarım yarımasın,
Düşmənlərim qarımasın.
Cancığazım üzülməsin,
Gözlərimə süzülməsin.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
İşıq ver, yaraşıq ver.
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin.

Səməni, ay səməni,
Sən gələndə yaz olur,
Saz olur, avaz olur.
Səməni saxla məni,
Səməni, can səməni,
Göyərdərəm mən səni.
Səməni, al məni,
Hər yazda,
Sən yada sal məni.
Səməni, saxla məni,
Göyərdərəm mən səni.

***"Azərbaycan"***